

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 112 (21.264)

9 iyun 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

İyunun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Bayıl bulvarının açılışında iştirak ediblər.

Dövlətimizin başçısına məlumat verildi ki, Bayıl bulvarının inşasına 2013-cü ildə başlanılıb. Layihə çərçivəsində bulvarda işlər yüksək səviyyədə həyata keçirilib. Ümumi sahəsi 24 hektar olan yeni istirahət mərkəzinin uzunluğu 2,3 kilometrdir. Burada 16 hektar yaşıllıq zonası yaradılıb.

Dövlətimizin başçısı Bayıl bulvarının rəmzi açılışını bildirən lenti kəsdi.

Yeni istirahət mərkəzində müasir işıqlandırma və suvarma sistemləri quraşdırılıb. Dövlət Bayrağı Meydanı istiqamətindən başlayan Bayıl bulvarında görülən işlər Dənizkənarı Milli Parkın simasını daha da gözəlləşdirir, paytaxta xüsusi yaraşıq verir.

* * *

İyunun 13-də Bakıda, Dövlət Bayrağı Meydanı ərazisində Azərbaycan Evi fəaliyyətə başlayacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva iyunun 8-də Azərbaycan Evində yaradılan şəraitlə tanış olublar.



## "Tikinti işlərinin dayandırılması Qaydası"nın təsdiq edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Tikinti işlərinin dayandırılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 iyun 2015-ci il*

## "Tikinti obyektlərinin sökülməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Tikinti obyektlərinin sökülməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 iyun 2015-ci il*

## Qayıdışdan Qurtuluşa

### *Ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya qayıdışı Azərbaycanın qurtuluşunun başlanğıc günüdür*

***Hər bir xalqın minilliklərboyu formalaşmış dövlətçilik ənənələrinin praktik şəkildə gerçəkləşməsi üçün əlverişli siyasi mühit və milli iradənin olması mühüm şərtdir. Ancaq mənən güclü, xalqına bağlı, vətənpərvər liderə malik olmayan xalqın müstəqillik, azadlıq ideallarına qovuşması mümkün deyil. Çətin dövrdə məsuliyyəti öz çiyinlərinə götürən belə fenomen şəxsiyyətlər xalqının daim arzusunda olduğu azadlıq, müstəqillik və milli dövlətçilik kimi ali ideallarin gerçəkləşməsində müstəsna rol oynayır, bununla da, əbədiyaşarlıq hüququ qazanırlar. Xalqımızın ümummilli lideri Heydər Əliyev məhz belə şəxsiyyətlərin fövqündə dayanan dahidir. Azərbaycanın ötən əsrin 90-cı illərində düşdüyü bəlalardan xilas olunması, itirilməkdə olan dövlət müstəqilliyimizin əbədi, dönməz xarakter alması ulu öndərimizin adı ilə bağlıdır.***

70 il imperiya əsarətində qalmış Azərbaycan xalqı daim müstəqilliyini bərpa etmək arzusu ilə yaşasa da, obyektiv səbəblərdən bu niyyətini yalnız ötən əsrin sonlarına doğru gerçəkləşdirmək şansı qazanmışdır. Keçmiş ittifaqın süqutundan sonra baş verən müəyyən proseslər xalqın öz hüquqları uğrunda fəal mücadiləyə qalxmasına və nəticədə, 1991-ci ilin 18 oktyabrında müstəqilliyini bərpa etməsinə imkan yaratmışdır. Xalq illərboyu ürəyində yaşatdığı, can atdığı istiqlala qovuşmuşdu. Lakin çox keçməmiş müstəqillik duyğusunun yaratdığı sevincin yerini iztirab, narahatlıq tutmuş, ölkəmiz ağır sınaqlarla üzləşmişdir. Müstəqilliyini qanı, canı bahasına bərpa etmiş müdrik xalqımızın 1991-ci ildən 1993-cü ilin iyun ayınadək böyük sarsıntı və fəlakətləri öz taleyində yaşamaq məcburiyyətində qalması, ümumilikdə, dövlətin özünün gələcəyinin sual altında olması ilə şərtlənirdi. Müstəqilliyin ilk illərində xalqın iradəsinə zidd şəkildə iqtidara yiyələnən, dövlətçilik və siyasi idarəçiliklə bağlı baxışları son dərəcədə primitiv məlum qüvvələr faktiki olaraq Azərbaycanı taleyin ümidinə buraxmışdılar.

Artıq Azərbaycanın müstəqil bir dövlət kimi yaşaması üçün təhlükə göz qabağında idi. 1991-1993-cü illərdə ölkəmizdəki anarxiya və xaotik proseslər təsdiq edirdi ki, yalnız Heydər Əliyev kimi qətiyyətli, iradəli siyasi lider Azərbaycanı bu bəlalardan xilas edə, yenicə əldə edilmiş müstəqilliyimizi yaşada bilər.

Azərbaycanın məhv olmaq ərəfəsində olduğu bir dövrdə xalqımızın ulu öndər Heydər Əliyevə üz tutması təsadüfi deyildi. Çünki hamı yaxşı anlayırdı ki, Azərbaycanı düşdüyü ağır vəziyyətdən yalnız ümummilli lider Heydər Əliyev xilas edə bilər. Ulu öndərimiz o dövrün Azərbaycanını belə xarakterizə edirdi: ***"1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, ovaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycan ərazisinin, demək olar ki, yarıdan çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən ovaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".***

Həmin dövrdə xalqımız çıxılmaz vəziyyətə düşmüşdü. İnsanlar üzünü görkəmli dövlət xadimi Heydər Əliyevə tutub nicatımızın yalnız onunla bağlı olduğunu bildirirdilər. Getdikcə bu axın güclənir və iri bir hərəkata çevrilirdi.

Azərbaycanı müstəqilliyə hazırlayan görkəmli dövlət xadimi Heydər Əliyev belə bir vəziyyəti kənardan seyr edə, xalqın çağırışına, tələbinə biganə qala bilməzdi. 1993-cü il iyun ayının 9-da xalqımızın böyük oğlu Heydər Əliyev Naxçıvandan Bakıya qayıtdı. Dövlətçiliyimizin müqəddəratının həll olunduğu belə bir məqamda dahi öndərin Bakıya qayıdışı respublika əhalisində böyük ümidlər yaratdı. Çünki ölkəni çətin vəziyyətdən ancaq Heydər Əliyev dühasının xilas edəcəyinə hamı qəlbən inanırdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Müstəqil Azərbaycan öz nicatını görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətə ikinci dəfə QAYIDIŞINDA tapdı. Keçdiyimiz zaman məsafəsi xalqın düzgün qərar qəbul etdiyini, saysız-hesabsız problemlər məngənəsində sıxılan ölkəmizin ən ağır və məsul dövründə onu qurtuluş yolu ilə aparmağa qadir olan yeganə şəxsiyyətin məhz Heydər Əliyev olduğunu bir daha sübut etdi. Heydər Əliyevin Naxçıvandan Bakıya, böyük siyasətə QAYIDIŞI şərəfli xilaskar missiyasına, Azərbaycanı Azərbaycana qaytarmaq məramına xidmət edir".***

Ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya qayıdışı və 6 gün sonra Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ilə müasir tariximizdə yeni mərhələnin başlanğıcı qoyulmuşdur. İyunun 15-i müstəqillik tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuşdur. Ümummilli liderimizin müdrik xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən, xalq cümhuriyyətinin acı taleyini yaşamaq aqibətindən qurtulmuşdur.

Ulu öndər Heydər Əliyevin iyunun 15-də Ali Sovetin Sədri seçilməsi ümummilli liderimizin, sadəcə, hakimiyyətə qayıdışı deyil, eyni zamanda xalqın qurtuluş və özünütəsdiq tarixidir. Bu tarixi qayıdış, ilk növbədə, Azərbaycanın varlığını, müstəqilliyini, dövlətçiliyini qoruyub saxlamış, ölkəni parçalanmaqdan, vətəndaş müharibəsindən, düşmən işğalının geniş miqyas almasından xilas etmişdir.

Xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində ilk mühüm addımlarından biri cəmiyyətin vahidliyinin, bütövlüyünün təmin olunması, milli ideologiyanın sistem halında təqdimatı olmuşdur. Bu bir reallıqdır ki, ulu öndər cəmiyyətin vahidliyini təmin edərək, onun müxtəlif istiqamətlər – sosial bərabərsizlik, regional, dini və milli mənsubiyyət amili baxımından parçalanmasına imkan verməmişdir. Bu, Azərbaycan dövlətçiliyinin yaşaması, inkişaf etməsi baxımından son dərəcə vacib amil idi və ötən illərin reallıqları da bunu təsdiqlədi. ***"Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam"***, – deyən ulu öndər dünya azərbaycanlılarını Azərbaycançılıq ideyası ətrafında səfərbər etmişdir.

Azərbaycana ikinci rəhbərliyi dövründə – cəmi on il müddətində ümummilli liderimiz neçə-neçə qərinəyə sığmayan, dünya durduqca dəyərini itirməyən nəhəng və son dərəcə böyük işlər görmüşdür.

Qısa müddətdə Azərbaycanda görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə bütün sahələrdə əsaslı dönüş baş vermişdir: dağılmış iqtisadiyyat bərpa olunmuş, yeni-yeni müəssisələr işə salınmış, yüz minlərlə iş yeri yaradılmış, "Əsrin müqaviləsi" adlanan nəhəng neft müqaviləsi imzalanmışdır. Azərbaycanın milli sərvətləri xalqımızın rifah halının yaxşılaşdırılmasına yönəldilmiş, ölkədə vətəndaş həmrəyliyi, siyasi sabitlik, qanunların aliliyinə əsaslanan hüquqi-demokratik idarəçilik sistemi bərqərar olunmuş, qabaqcıl dünya təcrübəsinin ən yaxşı nailiyyətlərini özündə cəmləşdirən Konstitusiya qəbul edilmiş, azad və şəffaf seçkilərin keçirilməsi təmin edilmiş, sosial-mədəni həyatın bütün sahələri əsl inkişafa qovuşmuşdur. Bütün bunların müqabilində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsi, haqq səsinin dünyaya çatdırılması, xaricdə yaşayan azərbaycanlılarla davamlı əlaqələrin qurulması istiqamətində də möhtəşəm tədbirlər həyata keçirilmişdir. Bir sözlə, 1993-2003-cü illərdə ulu öndər Heydər Əliyev Azərbaycanı Azərbaycana qaytarmış, müstəqilliyimizin əsl xilaskarı, hər bir vətəndaşın böyük qayğıkeşi, hamisi kimi hələ sağlığında xalqın qəlbində heykəlləşmiş, əbədiləşmişdir.

Bu gün müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin yolu ilə inamla irəliləyir. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi, siyasi, mədəni həyatın bütün sahələrində uğur qazanılır, ulu məmləkətimiz gündən-günə inkişaf edir. Möhtərəm İlham Əliyevin müəllifliyi ilə son 12 ildə Azərbaycanın möhtəşəm inkişaf salnaməsinin yeni parlaq səhifələri yazılır. Ulu öndər Heydər Əliyevin strateji inkişaf kursunu müasir mərhələyə uyğun zənginləşdirən dövlət başçısının yürütdüyü məqsədyönlü siyasət müasir Azərbaycanın şanlı tarixinə çevrilir. Bu gün Azərbaycan dünyada söz sahibinə çevrilən, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi böyük bir missiyanı uğurla başa çatdıran, Avropa Oyunları kimi mötəbər bir beynəlxalq idman tədbirinə ev sahibliyi edən qüdrətli dövlətdir.

Yüksələn Azərbaycanın ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanımız bu böyük tərəqqinin daha geniş və parlaq müşahidə olunduğu məkandır. Blokada şəraitində olsa da, Naxçıvan yaşayır, sürətlə inkişaf edir. Bütün bunlar zamanın dahisi, böyük xilaskar Heydər Əliyev siyasətinin təntənəsidir. Müstəqil Azərbaycanın bu gün əldə etdiyi bütün uğurlara görə xalqımız ulu öndərimizin 1993-cü ildə Naxçıvandan Bakıya, ali hakimiyyətə qayıdışına, Milli Qurtuluş Gününə borcludur!

*Təbii ki, Heydər Əliyev şəxsiyyəti olmasaydı, bu gün biz müstəqil və qüdrətli Azərbaycan dövlətindən danışa bilməzdik. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Xilasımız və inkişafımız ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ötən hər ili göz önünə gətirəndə bir daha əmin oluruq ki, ölkəmizdə Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu kurs, bu yol Azərbaycanda sosial-iqtisadi inkişafın yeni tələblər baxımından təmin olunmasının yeganə düzgün yoludur. Bu yol ölkəmizin bu gününün, sabahının və gələcəyinin yoludur".***


**Məmməd RZAYEV**
*professor*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 8 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Tikinti işlərinin dayandırılması
# QAYDASI

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda Naxçıvan Muxtar Respublikasının ərazisində həyata keçirilən tikinti, əsaslı təmir, yenidənqurma və bərpa işləri (bundan sonra – tikinti işləri) zamanı pozuntuların qarşısının vaxtında alınması, aradan qaldırılması və Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində (bundan sonra – Məcəllə) nəzərdə tutulmuş hallarda tikinti işlərinin dayandırılması ilə bağlı prosedurları və mexanizmi tənzimləyir, habelə bu sahədə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin (bundan sonra – Nazirlik) səlahiyyətlərini müəyyən edir.

1.2. Bu Qaydanın əsas məqsədi tikinti işləri zamanı sifarişçi və podratçı tərəfindən qanunvericiliyin, şəhərsalma və tikintiyə dair normativ sənədlərin (bundan sonra – normativ sənədlər) tələblərinə riayət olunmasını təmin etməkdən, insanların həyatı, sağlamlığı və əmlakı üçün potensial təhlükə yarada biləcək pozuntuların qarşısının vaxtında alınması və aradan qaldırılması üçün müvafiq tədbirləri həyata keçirməkdən ibarətdir.

1.3. Bu Qayda Naxçıvan Muxtar Respublikasının ərazisində mülkiyyət formasından və təyinatından asılı olmayaraq bütün tikinti obyektlərinə şamil olunur. Bu Qayda Məcəlləyə əsasən tikintisinə icazə tələb olunmayan tikinti obyektlərinə şamil olunmur.

1.4. Bu Qaydaya uyğun olaraq, Nazirlik öz səlahiyyətlərini Nazirliyin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi (bundan sonra – İdarə) vasitəsilə həyata keçirir.

1.5. Qanunvericiliyə uyğun olaraq, bu Qaydaların müddəaları Məcəllənin qüvvəyə minməsindən əvvəl tikintisi başlanılmış və başa çatdırılmamış tikinti obyektlərinə də şamil edilir.

**2. Tikinti işləri dayandırılmadan aşkar olunmuş pozuntuların aradan qaldırılması qaydası**

2.1. Məcəlləyə əsasən tikinti işlərinin həyata keçirilməsi zamanı aşağıdakı pozuntu halları aşkar edildikdə, hər bir pozuntu ayrıca təsvir olunmaqla müvafiq akt tərtib edilir və tikinti işlərini dayandırmadan onların aradan qaldırılması barədə sifarişçiyə (podratçıya) icrası məcburi olan yazılı göstəriş (bundan sonra – Göstəriş) təqdim edilir:

2.1.1. tikinti işlərinin tikintiyə dair icazəyə, məlumatlandırma icraatının tətbiq olunduğu hallarda isə tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsinə uyğun aparılmadığı müəyyən edildikdə;

2.1.2. tikinti obyektinin təhlükəsizliyinə və etibarlılığına təhlükə yaradan qüsurlar müəyyən edildikdə və həmin qüsurları digər tikinti işlərini dayandırmadan aradan qaldırmaq mümkün olduqda;

2.1.3. şəhərsalma və tikinti qanunvericiliyinin tələblərinə zidd olaraq, uyğunluq sertifikatı olmayan tikinti materiallarından və məmulatlarından istifadə edildikdə;

2.1.4. Məcəllədə nəzərdə tutulmuş peşə sahələri üzrə müvafiq ixtisası və ya sertifikatı olmayan şəxslər tikinti-quraşdırma, mexanikləşdirmə və nəqletmə işlərinə cəlb edildikdə.

2.2. Tikinti işləri həyata keçirildiyi zaman bu Qaydanın 2.1-ci bəndində göstərilən hər hansı bir pozuntu halı aşkar edildikdə, bununla bağlı İdarənin nümayəndəsi tikinti obyektinə dair iki nüsxədən ibarət texniki baxış aktı tərtib edir. Texniki baxış aktında aşağıdakılar göstərilir:

2.2.1. texniki baxış aktını tərtib edən şəxsin adı, soyadı, atasının adı, vəzifəsi;

2.2.2. tikinti obyektinin ünvanı və təyinatı;

2.2.3. texniki baxış aktı tərtib olunan tikinti obyektinin sifarişçisinin, layihəçinin və podratçının (olduqda) adı, soyadı, atasının adı, hüquqi şəxs olduqda isə onun tam adı;

2.2.4. texniki baxış aktının tərtib olunduğu tarix və vaxt;

2.2.5. icazə sənədi (tələb olunduqda) barədə məlumat;

2.2.6. müvafiq lisenziyalar barədə məlumat;

2.2.7. tikinti layihəsinə dair ekspertiza rəyinin rekvizitləri (ekspertiza tələb olunduğu hallarda);

2.2.8. aparılmış tikinti-quraşdırma işlərinin həcmi barədə məlumat;

2.2.9. obyektin mövcud vəziyyəti barədə məlumat;

2.2.10. tikinti obyektində aşkar olunmuş hər bir pozuntunun ayrıca təsviri.

2.3. Bu Qaydanın 2.2-ci bəndinə uyğun olaraq tərtib olunmuş texniki baxış aktı dövlət nəzarətini həyata keçirən vəzifəli şəxs tərəfindən imzalanır, bir nüsxəsi vəzifəli şəxs tərəfindən sifarişçiyə (podratçıya) və ya onun məsul şəxsinə təqdim edilir, sifarişçi (podratçı) və ya onun məsul şəxsi isə digər nüsxədə adı, soyadı və tarix göstərilməklə texniki baxış aktını qəbul etməsi barədə imza edir. Tikinti obyektinin sifarişçisi (podratçısı) və ya onun məsul şəxsi texniki baxış aktının nüsxəsini qəbul etməkdən imtina etdikdə, həmin aktı tərtib edən vəzifəli şəxs aktda bu barədə müvafiq qeyd edir.

2.4. Bu Qaydaların 2.2-ci bəndində nəzərdə tutulmuş texniki baxış aktı tərtib edildiyi gündən 4 (dörd) iş günü müddətində İdarə tərəfindən Göstəriş tərtib olunur.

2.5. Göstərişdə tikinti işlərində aşkar olunmuş hər bir pozuntunun ayrıca təsviri qeyd olunmaqla, həmin pozuntuların sifarişçi (podratçı) tərəfindən aradan qaldırılması üçün, müvafiq işlərin həcmindən asılı olaraq, müddət müəyyən edilir. Göstəriş İdarənin rəhbəri tərəfindən imzalanır və möhürlə təsdiq edilir. Göstərişdə işin mahiyyətinə dair hallarla yanaşı, aşağıdakılar göstərilir:

2.5.1. Göstərişi imzalayan şəxsin adı, soyadı, atasının adı, vəzifəsi;

2.5.2. Göstərişin tərtib olunduğu tarix və vaxt;

2.5.3. tikinti obyektinin ünvanı və təyinatı;

2.5.4. tikinti obyektinin sifarişçisinin, layihəçinin və podratçının (olduqda) adı, soyadı, atasının adı, hüquqi şəxs olduqda isə onun tam adı;

2.5.5. icazə sənədi (tələb olunduqda) barədə məlumat;

2.5.6. müvafiq lisenziyalar barədə məlumat;

2.5.7. tikinti layihəsinə dair ekspertiza rəyinin rekvizitləri (ekspertiza tələb olunduğu hallarda);

2.5.8. aparılmış tikinti-quraşdırma işlərinin həcmi barədə məlumat;

2.5.9. obyektin mövcud vəziyyəti barədə məlumat;

2.5.10. bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulmuş akt barədə məlumat;

2.5.11. tikinti obyektində aşkar olunmuş hər bir pozuntunun ayrıca təsviri;

2.5.12. tikinti obyektində aşkar olunmuş hər bir pozuntunun sifarişçi (podratçı) tərəfindən aradan qaldırılması üçün müəyyən edilmiş müddət;

2.5.13. Göstərişdən şikayət verilməsi qaydası.

2.6. Göstəriş verildiyi gündən 3 (üç) iş günü müddətində vəzifəli şəxs tərəfindən sifarişçiyə (podratçıya) və ya onun məsul şəxsinə təqdim edilir, sifarişçi (podratçı) və ya onun məsul şəxsi isə Göstərişin surətində adı, soyadı və tarix göstərilməklə onu qəbul etməsi barədə imza edir. Tikinti obyektinin sifarişçisi (podratçısı) və ya onun məsul şəxsi Göstərişi qəbul etməkdən imtina etdikdə, dövlət nəzarətini həyata keçirən vəzifəli şəxs Göstərişin surətində bu barədə müvafiq qeyd edir. Bu halda Göstəriş sifarişli poçt göndərişi ilə onun ünvanına göndərilir. Göstəriş sifarişli poçt göndərişi ilə sifarişçiyə (podratçıya) çatdırıldığı gün həmin Göstəriş rəsmi qaydada verilmiş hesab edilir.

2.7. Sifarişçi (podratçı) ona bu Qaydanın 2.6-cı bəndinə uyğun olaraq təqdim edilmiş Göstərişdə qeyd olunan pozuntuları müəyyən olunan müddətdə aradan qaldırmalı və bu barədə İdarəyə yazılı məlumat verməlidir.

2.8. İdarə, bu Qaydanın 2.7-ci bəndində nəzərdə tutulmuş məlumatın verildiyi gündən, belə məlumat verilmədiyi hallarda isə, pozuntuların aradan qaldırılması üçün Göstərişdə müəyyən edilmiş müddətin başa çatdığı gündən ən geci 3 iş günü ərzində sifarişçinin və podratçının iştirakı ilə həmin pozuntuların aradan qaldırılıb-qaldırılmadığını yoxlayır.

2.9. Bu Qaydanın 2.8-ci bəndində nəzərdə tutulmuş qaydada aparılmış yoxlama nəticəsində pozuntuların aradan qaldırılmadığı və ya tam aradan qaldırılmadığı müəyyən edildikdə, yoxlama aparıldığı gündən 2 (iki) iş günü müddətində İdarə sifarişçiyə (podratçıya) icrası yoxlanılmış Göstərişin icra olunmayan hissəsi ilə bağlı yenidən yazılı göstəriş (bundan sonra – Təkrar Göstəriş), pozuntuların aradan qaldırıldığı müəyyən edildikdə isə həmin müddətdə sifarişçiyə (podratçıya) bu barədə yazılı məlumat verir. Bu Qaydanın 2.8-ci bəndinə uyğun olaraq məlumatın təqdim edildiyi gündən 5 (beş) iş günü ərzində İdarə sifarişçiyə (podratçıya) Təkrar Göstəriş və ya Göstərişdə nəzərdə tutulmuş pozuntuların aradan qaldırıldığı barədə yazılı məlumat vermədikdə, həmin pozuntular aradan qaldırılmış hesab olunur.

2.10. Təkrar Göstərişdə bu Qaydanın 2.5.1-ci - 2.5.9-cu və 2.5.13-cü yarımbəndlərində nəzərdə tutulanlarla yanaşı, icrası yoxlanılmış Göstərişin rekvizitləri, həmin Göstəriş üzrə aradan qaldırılmamış hər bir pozuntunun ayrıca təsviri verilməli, habelə hər bir pozuntunun sifarişçi (podratçı) tərəfindən aradan qaldırılması üçün, müvafiq işlərin həcmindən asılı olaraq, ağlabatan müddət müəyyən edilməlidir. Təkrar Göstərişin tərtibi ilə bağlı əlavə tələblərə, habelə onun sifarişçiyə (podratçıya) və ya onun məsul şəxsinə təqdim olunması, pozuntuların aradan qaldırılıb-qaldırılmadığının yoxlanılması proseduruna bu Qaydanın 2.5-ci - 2.8-ci bəndlərinin müddəaları tətbiq olunur.

2.11. Təkrar Göstərişlə bağlı bu Qaydanın 2.8-ci bəndində nəzərdə tutulan qaydada aparılmış yoxlama nəticəsində pozuntuların aradan qaldırılmadığı və ya tam aradan qaldırılmadığı müəyyən edildikdə, dövlət nəzarətini həyata keçirən vəzifəli şəxs bu Qaydanın 3.1.3-cü - 3.1.5-ci yarımbəndlərində göstərilən müddətləri nəzərə almadan, bu Qaydanın 3.1-ci bəndinə uyğun olaraq texniki baxış aktı tərtib edərək sifarişçiyə (podratçıya) təqdim edir, pozuntuların aradan qaldırıldığı müəyyən edildikdə isə yoxlamanın aparıldığı gündən 2 (iki) iş günü müddətində İdarə sifarişçiyə (podratçıya) bu barədə yazılı məlumat verir. Təkrar Göstərişlə bağlı yoxlamanın nəticələrinə görə texniki baxış aktı təqdim edilmədikdə, yaxud yoxlama ilə bağlı bu Qaydanın 2.8-ci bəndinə uyğun olaraq məlumatın təqdim edildiyi gündən 5 (beş) iş günü ərzində İdarə sifarişçiyə (podratçıya) Təkrar Göstərişdə nəzərdə tutulmuş pozuntuların aradan qaldırıldığı barədə yazılı məlumat vermədikdə, həmin pozuntular aradan qaldırılmış hesab olunur.

2.12. Bu Qaydanın 2.4-cü və 2.9-cu bəndlərində nəzərdə tutulmuş Göstərişin formasını Nazirlik müəyyən edir.

**3. Tikinti işlərinin dayandırılması və tikinti işləri dayandırılmaqla, aşkar olunmuş pozuntuların aradan qaldırılması qaydası**

3.1. Tikinti işləri həyata keçirilərkən aşağıdakı pozuntular aşkar olunduqda, texniki baxış aktı tərtib edilir və onun əsasında İdarə tikinti işlərinin dayandırılması barədə qərar qəbul edir:

3.1.1. tikintiyə icazənin tələb olunmasına baxmayaraq, tikinti obyekti belə icazə alınmadan tikildikdə;

3.1.2. tikinti obyektinin təhlükəsizliyinə və etibarlılığına təhlükə yaradan qüsurlar müəyyən edildikdə və həmin qüsurları digər tikinti işlərini dayandırmadan aradan qaldırmaq mümkün olmadıqda;

3.1.3. bu Qaydanın 2.1.1-ci yarımbəndində müəyyən edilən pozuntularla bağlı təqdim edilmiş ilk yazılı Göstərişdə nəzərdə tutulan pozuntular ən geci 4 (dörd) ay müddətində aradan qaldırılmadıqda;

3.1.4. bu Qaydanın 2.1.2-ci yarımbəndində müəyyən edilən pozuntularla bağlı təqdim edilmiş ilk yazılı Göstərişdə nəzərdə tutulan pozuntular ən geci 1 (bir) il müddətində aradan qaldırılmadıqda;

3.1.5. bu Qaydanın 2.1.3-cü və 2.1.4-cü yarımbəndlərində müəyyən edilən pozuntularla bağlı təqdim edilmiş ilk yazılı Göstərişdə nəzərdə tutulan pozuntular ən geci 1 (bir) ay müddətində aradan qaldırılmadıqda.

3.2. Tikinti işləri həyata keçirildiyi zaman bu Qaydanın 3.1-ci bəndində göstərilən hər hansı bir pozuntu aşkar edildikdə, bununla bağlı dövlət nəzarətini həyata keçirən vəzifəli şəxs bu Qaydanın 2.2-ci və 2.3-cü yarımbəndlərinə uyğun olaraq texniki baxış aktı tərtib edərək sifarişçiyə (podratçıya) və ya onun məsul şəxsinə təqdim edir. Bu Qaydanın 3.1.3-cü - 3.1.5-ci yarımbəndlərində göstərilən hər hansı bir pozuntu aşkar edildikdə, texniki baxış aktında bu Qaydanın 2.2.1-ci - 2.2.10-cu yarımbəndlərində nəzərdə tutulanlarla yanaşı, icrası yoxlanılmış Təkrar Göstərişin rekvizitləri, həmin Təkrar Göstəriş üzrə aradan qaldırılmamış hər bir pozuntunun ayrıca təsviri göstərilməlidir.

3.3. İdarə, bu Qaydaların 3.1-ci bəndində nəzərdə tutulmuş pozuntularla bağlı texniki baxış aktı əsasında, onun tərtib edildiyi gündən 4 (dörd) iş günü müddətində tərəfindən tikinti işlərinin dayandırılması barədə qərar (bundan sonra – Qərar) tərtib edir.

3.4. Qərar İdarənin rəhbəri tərəfindən imzalanır və möhürlə təsdiq edilir. Qərarda işin mahiyyətinə dair hallarla yanaşı, aşağıdakılar göstərilir:

3.4.1. Qərarı qəbul edən şəxsin adı, soyadı, atasının adı, vəzifəsi;

3.4.2. Qərarın qəbul olunduğu tarix və vaxt;

3.4.3. tikinti obyektinin ünvanı və təyinatı;

3.4.4. tikinti obyektinin sifarişçisinin, layihəçinin və podratçının (olduqda) adı, soyadı, atasının adı, hüquqi şəxs olduqda isə onun tam adı;

3.4.5. icazə sənədi (tələb olunduqda) barədə məlumat;

3.4.6. müvafiq lisenziyalar barədə məlumat;

3.4.7. tikinti layihəsinə dair ekspertiza rəyinin rekvizitləri (ekspertiza tələb olunduğu hallarda);

3.4.8. aparılmış tikinti-quraşdırma işlərinin həcmi barədə məlumat;

3.4.9. obyektin mövcud vəziyyəti barədə məlumat;

3.4.10. bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulmuş akt barədə məlumat;

3.4.11. tikinti obyektində aşkar olunmuş pozuntu ilə bağlı verilmiş Göstərişin və Təkrar Göstərişin rekvizitləri, habelə Təkrar Göstəriş üzrə aradan qaldırılmamış hər bir pozuntunun ayrıca təsviri (Qərar bu Qaydanın 3.1.3-cü - 3.1.5-ci bəndləri əsasında qəbul edildiyi halda);

3.4.12. tikinti obyektində aşkar olunmuş və Qərarın qəbulunu şərtləndirən hər bir pozuntunun, bu pozuntuların faktiki və hüquqi hallarının ayrıca təsviri;

3.4.13. Qərarın qəbulunu şərtləndirən hər bir pozuntunun aradan qaldırılması ilə bağlı izahlı göstəriş, həmin pozuntuların aradan qaldırılması üçün müvafiq işlərin həcmindən asılı olaraq müəyyən edilmiş müddət;

3.4.14. Qərardan şikayət verilməsi qaydası.

3.5. Qərar qəbul edildiyi gündən 3 (üç) iş günü müddətində vəzifəli şəxs tərəfindən sifarişçiyə (podratçıya) və ya onun məsul şəxsinə təqdim edilir, sifarişçi (podratçı) və ya onun məsul şəxsi Qərarın surətində adı, soyadı və tarix göstərilməklə, onu qəbul etməsi barədə imza edir. Tikinti obyektinin sifarişçisi (podratçısı) və ya onun məsul şəxsi Qərarı qəbul etməkdən imtina etdikdə, dövlət nəzarətini həyata keçirən vəzifəli şəxs Qərarın surətində bu barədə müvafiq qeyd edir. Bu halda Qərar sifarişli poçt göndərişi ilə onun ünvanına göndərilir. Göstəriş sifarişli poçt göndərişi ilə sifarişçiyə (podratçıya) çatdırıldığı gün həmin Qərar rəsmi qaydada verilmiş hesab edilir.

3.6. Qərar əsasında tikinti işləri dayandırıldığı müddətdə tikintinin podratçısı (podratçısı olmadığı hallarda sifarişçisi) üçüncü şəxslərin həyatının və əmlakının, habelə ətraf mühitin təhlükəsizliyini təmin etmək məqsədi ilə tikinti meydançasında mühafizə tədbirləri görməlidir.

3.7. Tikinti işləri bu Qaydanın 3.1.2-ci, 3.1.3-cü və 3.1.4-cü yarımbəndlərinə əsasən dayandırıldığı hallarda sifarişçinin (podratçının) yalnız Qərarda müəyyən edilən pozuntuların aradan qaldırılması ilə bağlı işləri yerinə yetirməsinə yol verilir.

3.8. Sifarişçi (podratçı) Qərarda nəzərdə tutulmuş göstərişləri yerinə yetirməli və tikinti işlərinin dayandırılmasına əsas olmuş pozuntuları aradan qaldırmalıdır. Həmin pozuntular aradan qaldırıldıqda, sifarişçi (podratçı) bu barədə İdarəyə yazılı məlumat təqdim etməlidir.

3.9. Dövlət nəzarətini həyata keçirən vəzifəli şəxs bu Qaydanın 3.8-ci bəndində nəzərdə tutulmuş məlumatın təqdim edildiyi gündən 3 (üç) iş günü müddətində sifarişçinin və podratçının iştirakı ilə pozuntuların aradan qaldırılıb-qaldırılmadığını yoxlamalıdır.

3.10. Bu Qaydanın 3.9-cu bəndində nəzərdə tutulmuş yoxlama nəticəsində göstərişlərin yerinə yetirilmədiyi və tikinti işlərinin dayandırılmasına əsas olmuş pozuntuların aradan qaldırılmadığı müəyyən olunduqda, bu barədə,

*Ardı 3-cü səhifədə*

hər bir pozuntu ayrıca təsvir edilməklə, bu Qaydanın 2.2-ci və 2.3-cü yarımbəndlərinə uyğun olaraq texniki baxış aktı tərtib edilir və sifarişçiyə (podratçıya) və ya onun məsul şəxsinə təqdim olunur. Belə halda tikinti işlərinin dayandırılması haqqında qərar qüvvədə qalır və İdarə 2 (iki) iş günü müddətində sifarişçiyə (podratçıya) bu barədə yazılı məlumat verir. Yoxlama nəticəsində tikinti işlərinin dayandırılması üçün əsas olan pozuntuların aradan qaldırıldığı müəyyən olunduqda, İdarə tikinti işlərinin davam etdirilməsinə 2 (iki) iş günü müddətində yazılı razılıq verir və belə razılıq tikinti işlərinin dayandırılması haqqında qərarın qüvvədən düşməsini ehtiva edir.

3.11. Bu Qaydanın 3.8-ci bəndində nəzərdə tutulmuş məlumatın təqdim edildiyi gündən 5 (beş) iş günü müddətində İdarə sifarişçiyə (podratçıya) tikinti işlərinin dayandırılması haqqında qərarın qüvvədə qalması barədə yazılı məlumat və ya tikinti işlərinin davam etdirilməsinə yazılı razılıq vermədikdə, tikinti işlərinin dayandırılması barədə qərar qüvvədən düşmüş hesab olunur.

3.12. Bu Qaydanın 3.10-cu bəndinə uyğun olaraq qüvvədə qalan Qərarda nəzərdə tutulmuş göstərişlərin yerinə yetirilməsinin yoxlanılmasına və tikinti işlərinin dayandırılması üçün əsas olmuş pozuntuların aradan qaldırılıb-qaldırılmadığının yoxlanılmasına, habelə yoxlamanın nəticələrinə bu Qaydanın 3.8-ci - 3.10-cu bəndlərinin tələbləri tətbiq edilir.

**4. Mədəni irs obyektlərinin əlamətləri aşkar edildikdə, tikinti işlərinin dayandırılması qaydası**

4.1. Tikinti zamanı mədəni irs obyektlərinin əlamətləri aşkar edildikdə, tikinti işləri dərhal dayandırılır və bu barədə yerli icra hakimiyyəti orqanına məlumat verilir.

4.2. Yerli icra hakimiyyəti orqanı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədi ilə aidiyyəti üzrə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə müraciət edir.

4.3. Tikinti işlərinin davam etdirilməsi barədə qərar İdarə tərəfindən Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə razılaşdırmaqla qəbul edilir.

**5. Yekun müddəalar**

Tikinti işlərinin dayandırılması barədə qərar icra olunmadıqda, həmin tikinti obyektlərinə dair qanunvericiliklə müəyyən edilmiş tədbirlər tətbiq edilir.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 8 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Tikinti obyektlərinin sökülməsi
## QAYDALARI

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində (bundan sonra – Məcəllə) nəzərdə tutulmuş hallarda Naxçıvan Muxtar Respublikasının ərazisində tikintisi başa çatmış və ya çatmamış tikinti obyektinin və ya onun hissəsinin sökülməsi mexanizmini tənzimləyir və bununla bağlı Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin (bundan sonra – Nazirlik) səlahiyyətlərini müəyyən edir.

1.2. Bu Qaydaların məqsədi Məcəllənin tələbləri pozulmaqla aparılan tikinti işlərinin qarşısını almaqdan, şəhərsalma və tikinti qanunvericiliyinin, şəhərsalma və tikintiyə dair normativ sənədlərin (bundan sonra – normativ sənədlər) tələblərinə riayət olunmasını təmin etməkdən, insanların həyatı, sağlamlığı və əmlakı üçün potensial təhlükə yarada biləcək pozuntuları aradan qaldırmaqdan ibarətdir.

1.3. Nazirlik bu Qaydalara uyğun olaraq öz səlahiyyətlərini Nazirliyin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi (bundan sonra – İdarə) vasitəsilə həyata keçirir.

1.4. Bu Qaydaların 2.1.1-ci və 2.1.2-ci bəndlərində nəzərdə tutulmuş və Məcəlləyə əsasən yan divarlarının və dam örtüyünün tikintisi başa çatdırılmamış tikilən obyektin sökülməsi barədə qərarı İdarə qəbul edir.

1.5. Tikinti obyektlərinin sökülməsi (bu Qaydaların 5-ci hissəsində və 6.2-ci bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla) obyektin sifarişçisi tərəfindən icra olunmadığı halda, bu işi İdarə həyata keçirir.

1.6. Bu Qaydaların müddəaları Məcəllənin qüvvəyə minməsindən əvvəl tikintisi başlanılmış və başa çatdırılmamış tikinti obyektlərinə də şamil edilir.

**2. Tikinti obyektlərinin sökülməsi üçün əsaslar**

2.1. Tikintisi başa çatmış və ya çatmamış tikinti obyekti və ya onun hissəsi aşağıdakı hallarda sökülür:

2.1.1. tikintisinə Məcəllə qüvvəyə mindikdən sonra başlanılmış və tikinti mərhələsində olan tikinti obyekti və ya onun hissəsi aidiyyəti icra hakimiyyəti orqanı və ya bələdiyyə tərəfindən tikinti məqsədləri üçün ayrılmamış dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahəsində inşa edildikdə;

2.1.2. tikintiyə icazənin tələb olunmasına baxmayaraq, tikinti obyekti belə icazə alınmadan tikildikdə və həmin tikinti işlərinin dayandırılması barədə Məcəlləyə əsasən qərar qəbul edildiyi gündən 1 (bir) il ərzində tikintiyə icazə alınmadıqda;

2.1.3. tikinti obyektinin təhlükəsizliyinə və etibarlılığına təhlükə yaradan qüsurlar müəyyən edildikdə və həmin qüsurları digər tikinti işlərini dayandırmadan aradan qaldırmaq mümkün olmadıqda, həmin tikinti işlərinin dayandırılması barədə Məcəlləyə əsasən qəbul edilmiş qərarda nəzərdə tutulan pozuntular 2 (iki) il müddətində aradan qaldırılmadıqda;

2.1.4. tikinti işlərinin tikintiyə icazəyə, məlumatlandırma icraatının tətbiq olunduğu hallarda isə layihənin memarlıq-planlaşdırma bölməsinə uyğun aparılmadığı müəyyən edildikdə, həmin tikinti işlərinin dayandırılması barədə Məcəlləyə əsasən qəbul edilmiş qərarda nəzərdə tutulan pozuntular 2 (iki) il müddətində aradan qaldırılmadıqda;

2.1.5. tikinti obyektinin təhlükəsizliyinə və etibarlılığına təhlükə yaradan qüsurlar müəyyən edildikdə və həmin qüsurları digər tikinti işlərini dayandırmadan aradan qaldırmaq mümkün olduqda, lakin müəyyən olunmuş müddətdə aşkarlanmış pozuntuların aradan qaldırılması təmin edilmədikdə və həmin tikinti işlərinin dayandırılması barədə Məcəlləyə əsasən qəbul edilmiş qərarda nəzərdə tutulan pozuntular 2 (iki) il müddətində aradan qaldırılmadıqda;

2.1.6. sifarişçinin (tikinti obyektinin mülkiyyətçisinin) öz arzusu ilə.

**3. Tikinti məqsədləri üçün ayrılmamış dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahəsində inşa edilən obyektin və ya onun hissəsinin sökülməsi qaydası**

3.1. Tikinti obyektində bu Qaydaların 2.1.1-ci yarımbəndində göstərilən hallar mövcud olduqda, tikintiyə dövlət nəzarətini həyata keçirən vəzifəli şəxs dərhal həmin ana olan vəziyyəti əks etdirən və texniki baxış aktının tərkib hissəsi olan müvafiq fotoşəkillər çəkərək, iki nüsxədən ibarət texniki baxış aktı tərtib edir və həmin fotoşəkilləri texniki baxış aktına əlavə edir. Texniki baxış aktının bir nüsxəsi onu tərtib edən vəzifəli şəxs tərəfindən imzalanmaqla sifarişçiyə (sahibə) və ya onun nümayəndəsinə təqdim edilir, sifarişçi (sahib) və ya onun nümayəndəsi isə onun ikinci nüsxəsində adı, soyadı və tarix göstərilməklə texniki baxış aktını qəbul etməsi barədə imza edir.

3.2. Tikinti obyektinin sifarişçisi (sahibi) və ya onun nümayəndəsi aşkar olunmadıqda və onun aşkarlanması mümkün olmadıqda, habelə sifarişçi (sahib) və ya onun nümayəndəsi texniki baxış aktının nüsxəsini qəbul etməkdən imtina etdikdə, həmin aktı tərtib edən vəzifəli şəxs aktda bu barədə müvafiq qeyd edir. Texniki baxış aktı tərtib olunduqdan sonra tikinti işləri dərhal dayandırılaraq, həmin sahə lentlə bağlanılır və möhürlənir. Tikinti obyektinin sifarişçisinin (sahibinin) və ya onun nümayəndəsinin aşkar olunmaması və ya sifarişçinin (sahibin) və ya onun nümayəndəsinin texniki baxış aktının nüsxəsini qəbul etməkdən imtina etməsi obyektdə aparılan tikinti işlərinin dərhal dayandırılmamasına səbəb ola bilməz.

3.3. Texniki baxış aktında aşağıdakılar barədə məlumat göstərilməlidir:

3.3.1. texniki baxış aktını tərtib edən şəxsin adı, soyadı, atasının adı, vəzifəsi;

3.3.2. texniki baxış aktı tərtib olunan tikinti obyektinin sifarişçisinin (sahibinin) və ya onun nümayəndəsinin (aşkar olunduğu halda) adı, soyadı, atasının adı, hüquqi şəxs olduqda isə – onun tam adı, habelə tikinti obyektinin ünvanı;

3.3.3. texniki baxış aktının tərtib olunduğu tarix və vaxt;

3.3.4. tikinti obyektinin yan divarlarının və dam örtüyünün inşasının başa çatıb-çatmadığı;

3.3.5. aparılmış tikinti-quraşdırma işlərinin həcmi;

3.3.6. obyektin mövcud vəziyyəti;

3.3.7. sifarişçi (sahib) və ya onun nümayəndəsi 5 (beş) gün müddətində tikintisinə icazə tələb olunan obyektin icazəsi, məlumatlandırma icraatının tətbiq edildiyi tikinti obyektlərinə münasibətdə isə tikinti obyektinin memarlıq planlaşdırma bölməsinə iradların olmadığının təsdiqini təqdim etməyəcəyi halda Məcəlləyə əsasən tikinti obyektinin söküləcəyi barədə qərar qəbul olunacağı.

3.4. Bu Qaydaların 3.1-ci bəndində nəzərdə tutulmuş fotoşəkillər tikinti obyektinin yan divarlarının və dam örtüyünün inşasının başa çatıb-çatmamasını müəyyənləşdirməyə, aparılmış tikinti-quraşdırma işlərinin həcminin və obyektin mövcud vəziyyətinin, habelə onun yerləşdiyi yerin müəyyən edilməsinə imkan verməsi şərtilə çəkilməlidir.

3.5. Bu Qaydaların 2.1.1-ci yarımbəndində göstərilən halların mövcudluğuna görə barəsində texniki baxış aktı tərtib olunmuş tikinti obyektinin sifarişçisi (sahibi) və ya onun nümayəndəsi aşkar olunmadıqda və onu aşkarlamaq mümkün olmadıqda, İdarə həmin texniki baxış aktı və onun hüquqi nəticəsi olaraq tikinti obyektinin sökülməsi haqqında qərar qəbul ediləcəyi barədə kütləvi informasiya vasitələrində elan verir.

3.6. Elan verildikdən sonra 10 (on) gün müddətində tikinti obyektinin sifarişçisi (sahibi) və ya onun nümayəndəsi tikinti obyekti barəsində tərtib olunmuş texniki baxış aktında qeyd edilən və bu Qaydaların 3.3.7-ci yarımbəndində nəzərdə tutulan sənədləri təqdim etmədikdə, İdarə, yerli icra hakimiyyəti orqanının, şəhər (kənd, qəsəbə) və ya sahə inzibati ərazi dairəsi üzrə yerli icra hakimiyyəti başçısının nümayəndəliyinin, aidiyyəti bələdiyyənin nümayəndələrinin iştirakı ilə, bu Qaydaların 3.3.7-ci yarımbəndində nəzərdə tutulan sənədlərin təqdim olunmadığı, habelə tikinti obyektinin yerləşdiyi torpaq sahəsinin tikinti üçün ayrılmadığı barədə müvafiq akt tərtib edir.

3.7. Texniki baxış aktının sifarişçiyə (sahibə) və ya onun nümayəndəsinə təqdim edildiyi tarixdən 5 (beş) gün, sifarişçi (sahib) və ya onun nümayəndəsi aşkar olunmadıqda və onun aşkarlanması mümkün olmadıqda isə bu Qaydaların 3.6-cı bəndində nəzərdə tutulmuş 10 gün müddəti bitənədək bu Qaydaların 3.3.7-ci yarımbəndində göstərilən sənədlər təqdim edilməzsə, İdarə yan divarlarının və dam örtüyünün tikintisi başa çatmamış tikinti obyektinin bu Qaydalara uyğun olaraq sökülməsi barədə qərar qəbul edir.

3.8. Bu Qaydaların 3.7-ci bəndində nəzərdə tutulmuş sökülmə barədə qərarda işin mahiyyətinə dair hallarla yanaşı, aşağıdakılar göstərilir:

3.8.1. qərarı qəbul edən şəxsin adı, soyadı, atasının adı;

3.8.2. qərarın tərtib olunduğu tarix və vaxt;

3.8.3. tikinti obyektinin ünvanı;

3.8.4. tikinti obyektinin sifarişçisinin (sahibinin) və ya onun nümayəndəsinin adı, soyadı, atasının adı (məlum olduqda);

3.8.5. bu Qaydaların 3.5-ci və 3.6-cı bəndlərində nəzərdə tutulmuş elan və akt barədə məlumat;

3.8.6. tikinti obyektinin yerləşdiyi torpaq sahəsinin mülkiyyət növü və ondan istifadə barədə sənədin rekvizitləri;

3.8.7. tikinti obyektinin yerləşdiyi torpaq sahəsinin tikinti üçün ayrılmadığı barədə sənədlərin rekvizitləri;

3.8.8. qərardan şikayət verilməsi qaydası.

3.9. İdarənin qərarı qəbul edildiyi gündən 3 (üç) iş günü müddətində onun surəti aidiyyəti üzrə sifarişçiyə (sahibə) və ya onun nümayəndəsinə (məlum olduqda) təqdim edilir, habelə yerli icra hakimiyyəti orqanına, şəhər (kənd, qəsəbə) və ya sahə inzibati ərazi dairəsi üzrə yerli icra hakimiyyəti başçısının nümayəndəliyinə və aidiyyəti bələdiyyəyə göndərilir. Sifarişçinin (sahibin) və ya onun nümayəndəsinin aşkar olunmadığı və ya onun aşkarlanması mümkün olmadığı hallarda isə həmçinin kütləvi informasiya vasitələrində qərar barədə elan verilir.

3.10. Sifarişçi (sahib) və ya onun nümayəndəsi qərarın surətini qəbul edib, qərarın digər surətində adı, soyadı və tarix göstərməklə onu qəbul etməsi barədə imza edir. Sifarişçi (sahib) və ya onun nümayəndəsi qərarın surətini qəbul etməkdən imtina etdikdə, dövlət nəzarətini həyata keçirən vəzifəli şəxs qərarın surətində bu barədə müvafiq qeydlər aparır.

3.11. Sökülməsi barədə qərar qəbul edilmiş tikinti obyektinin sifarişçisinin (sahibinin) və ya onun nümayəndəsinin ünvanı məlum olduqda, həmin qərar sifarişli poçt göndərişi ilə onun ünvanına da göndərilir. Sifarişli poçt göndərişi ilə qərarın surəti sifarişçiyə çatdırıldığı gün həmin qərar rəsmi qaydada verilmiş hesab edilir.

3.12. Sifarişçi (sahib) və ya onun nümayəndəsi sökülməsi barədə qərar qəbul edilmiş tikinti obyektinin sökülməsini bir ay müddətində təmin etməlidir. Sifarişçi (sahib) və ya onun nümayəndəsi sökülməsi barədə qərar qəbul edilmiş tikinti obyektinin sökülməsini bir ay müddətində təmin etmədikdə, habelə tikinti obyektinin sifarişçisi (sahibi) və ya onun nümayəndəsi aşkar olunmadıqda və onun aşkarlanması mümkün olmadıqda, həmin tikinti obyekti İdarə tərəfindən sökülür.

3.13. Sökülməsi barədə qərar qəbul edilmiş tikinti obyektinin sökülməsini həyata keçirən şəxs onun mühəndis-kommunikasiya təminatı sistemlərindən və xətlərindən ayrılması barədə təchizat müəssisələrinə müraciət etməlidir. Təchizat müəssisələri mühəndis-kommunikasiya təminatı sistemləri və xətlərindən ayrılmanı 3 (üç) iş günü müddətində təmin etməlidirlər.

3.14. Sökülməsi nəzərdə tutulan tikinti obyekti və ya onun hissəsi hər hansı bir mühəndis-kommunikasiya təminatı sisteminin və ya xəttinin üzərində, altında və ya mühafizə zonasında inşa edilmişdirsə, sökülməni həyata keçirən şəxs onun sökülməsi zamanı müvafiq təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini təmin etməlidir.

3.15. Mühafizə zonasında inşa edilmiş tikinti obyektinin sökülməsi, bu Qaydaların tələblərinə uyğun olaraq, müvafiq mühəndis-kommunikasiya təminatı sistem və xətlərini təmin edən təchizat müəssisələrinin, habelə nəqliyyat və digər aidiyyəti qurumların iştirakı ilə həyata keçirilir.

3.16. Söküntü işlərinin həyata keçirilməsi və söküntü materiallarının daşınması zamanı təhlükəsizlik tədbirlərinə əməl olunmalıdır.

3.17. Söküntü işlərinin aparılması faktı yerində İdarə tərəfindən aktlaşdırılır və aktın bir nüsxəsi sökülən tikinti obyektinin sifarişçisinə (sahibinə) və ya onun nümayəndəsinə verilir.

3.18. Söküntü işləri İdarə tərəfindən həyata keçirildikdə, bu Qaydaların 3.13-cü - 3.16-cı bəndlərində göstərilənlərdən əlavə aşağıdakı tədbirlərin yerinə yetirilməsi təmin olunmalıdır:

3.18.1. sifarişçinin (sahibin) iştirakı ilə tikinti obyektində ona məxsus olan daşınar əmlakın, o cümlədən maşın və mexanizmlərin, materialların və s. zədələnmədən həmin ərazidən çıxarılması;

3.18.2. təkrar istifadəyə yararlı tikinti materialları və məmulatlarının həcminin müəyyən edilməsi barədə İdarənin məsul şəxsləri tərəfindən aktın tərtib edilməsi və qanunvericiliyin tələbləri nəzərə alınmaqla bu materialların müvəqqəti saxlanmaq üçün xüsusi ayrılmış əraziyə aparılması;

3.18.3. söküntü işlərinin və bu Qaydaların 3.14-cü bəndində nəzərdə tutulan təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi üçün tələb olunan vəsaitin ödənilməsi;

3.18.4. söküntü işləri aparılan zaman söküntü işlərinin aparılmasına maneə törədilərsə, ictimai asayişin təmin edilməsi üçün ərazi polis orqanına tikinti obyektinin sökülməsi barədə qərarı göndərməklə müraciət edilməsi.

3.19. Bu Qaydaların 3.18.3-cü yarımbəndinə əsasən ödənilən vəsait, habelə söküntü işlərinin aparılması ilə bağlı xərclənən vəsait

Ardı 4-cü səhifədə

sonradan sifarişçi (sahib) tərəfindən İdarənin hesablaşma hesabına ödənilməlidir. Sifarişçi söküntü işlərinin aparılması üçün nəzərdə tutulan vəsaiti könüllü olaraq ödəmədikdə, İdarə həmin vəsaitin məcburi qaydada tutulması məqsədi ilə məhkəməyə müraciət edir.

3.20. İdarə bu Qaydaların 3.12-ci bəndinə uyğun olaraq tikinti obyektinin sifarişçisinin (sahibinin) və ya onun nümayəndəsinin aşkar olunmadığı və onun aşkarlanmasının mümkün olmadığı əsasa görə söküntü işlərini həyata keçirdiyi zaman çıxan tikinti materialları və məmulatları təkrar istifadəyə yararlı olduqda, söküntü işlərinə və təhlükəsizlik tədbirlərinin həyata keçirilməsinə sərf olunan xərclərin ödənilməsi məqsədi ilə həmin tikinti materiallarını və məmulatları açıq bazarda satır və əldə olunan vəsait İdarə tərəfindən açılan xüsusi bank hesabına köçürülür. Söküntüdən çıxan tikinti materialları və məmulatları təkrar istifadəyə yararlı olmadıqda, bu barədə tərtib edilən aktda müvafiq qeydlər aparılır. Bu halda söküntü işlərinə çəkilən xərclər dövlət büdcəsi hesabına ödənilir.

**4. Tikintisinə icazə alınmadan inşa olunan obyektin və ya onun hissəsinin sökülməsi qaydası**

4.1. Bu Qaydaların 2.1.2-ci yarımbəndinə əsasən tikintisinə icazənin tələb olunmasına baxmayaraq, belə icazə alınmadan tikilmiş və barəsində tikinti işlərinin dayandırılmasına Məcəlləyə müvafiq qaydada qərar qəbul edildiyi gündən 1 (bir) il müddətində Məcəlləyə uyğun olaraq tikintisinə icazə alınmayan, yan divarlarının və dam örtüyünün tikintisi başa çatmamış obyektin sökülməsi barədə İdarə müvafiq qərar qəbul edir.

4.2. Bu Qaydaların 4.1-ci bəndində nəzərdə tutulmuş sökülmə barədə qərarda işin mahiyyətinə dair hallarla yanaşı, aşağıdakılar göstərilir:

4.2.1. qərarı tərtib edən şəxsin adı, soyadı, atasının adı, vəzifəsi;

4.2.2. qərarın tərtib olunduğu tarix və vaxt barədə məlumat;

4.2.3. tikinti obyektinin ünvanı;

4.2.4. tikinti obyektinin sifarişçisinin (sahibinin) və ya onun nümayəndəsinin adı, soyadı, atasının adı (məlum olduqda);

4.2.5. tikinti obyektində tikinti işlərinin dayandırılması barədə qanunvericiliyə uyğun olaraq qəbul edilmiş qərarın rekvizitləri;

4.2.6. sökülmə tikinti obyektinin hissəsinə aid olduqda – həmin hissə barədə məlumat;

4.2.7. tikinti obyektinin yerləşdiyi torpaq sahəsinin mülkiyyət növü barədə sənədin rekvizitləri;

4.2.8. tikinti obyektinin tikintisinə icazə verilməməsi barədə aidiyyəti yerli icra hakimiyyəti orqanının məktubunun rekvizitləri;

4.2.9. qərardan şikayət verilməsi qaydası.

4.3. Bu Qaydaların 4.1-ci bəndində göstərilən qərarın sifarişçiyə (sahibə) və ya onun nümayəndəsinə təqdim edilməsi, müvafiq orqanlara göndərilməsi, kütləvi informasiya vasitələrində elan edilməsi, habelə bu qərarın icrası məqsədi ilə tikinti obyektinin sifarişçisi (sahibi) və ya onun nümayəndəsi və ya İdarə tərəfindən sökülməsi məsələlərinə bu Qaydaların 3.9-cu - 3.20-ci bəndləri şamil olunur.

**5. Məhkəmə qaydasında sökülən tikinti obyektləri ilə bağlı İdarənin vəzifələri**

Bu Qaydaların 2.1.3-cü, 2.1.4-cü və 2.1.5-ci yarımbəndlərində nəzərdə tutulmuş hallarda, habelə bu Qaydaların 3-cü və 4-cü hissələrində göstərilən obyektlərdə yan divarların və dam örtüyünün tikintisi tam başa çatdırıldıqda, İdarə tikinti obyektinin və ya onun hissəsinin sökülməsi barədə məhkəməyə müraciət edir.

**6. Yekun müddəalar**

6.1. Maraqlı şəxslər tikinti obyektinin və ya onun hissəsinin sökülməsi barədə İdarənin qərarından inzibati qaydada və (və ya) məhkəməyə şikayət verə bilərlər.

6.2. Məcəlləyə əsasən tikintisinə icazə verilmiş bina və qurğuların sökülməsi müvafiq qaydada hazırlanmış və təsdiq edilmiş tikinti layihəsi əsasında aparılır.

## İməciliklər mütəşəkkilliklə davam etdirilir

Muxtar respublika sakinlərinin artıq vətəndaşlıq borcuna çevrilən iməciliklər hesabına diyarımızda yaşıllıq sahələrinin həcmi bir neçə dəfə artıb, bu tədbirlərdə xeyli meyvə bağları, yaşıllıq zolaqları salınıb. Hər həftənin şənbə günləri davam etdirilən iməciliklərdə ağaclar əkilir, yaşıllıq sahələrinə aqrotexniki qulluq göstərilir.

İyunun 6-da keçirilən növbəti şənbə iməciliklərində ötən iməciliklərdə salınmış yaşıllıq zolaqlarına aqrotexniki qulluq göstərilib, ağac və gül kolları əkilib. Belə ki, Naxçıvan şəhər sakinləri Uzunoba Su Anbarının yaxınlığındakı, müəssisə və təşkilatların ərazilərindəki yaşıllıq sahələrinə aqrotexniki qulluq göstəriblər.

Şərur rayonunun Dəmirçi kəndindəki 5 hektarlıq meyvə bağında, Yengicə kənd tam orta məktəbinin ərazisindəki yaşıllıqlarda da bu tədbir həyata keçirilib.

Babəklilər Naxçıvan-Batabat magistral yolunun Vayxır kəndi hissəsində və Əshabi-Kəhf ziyarətgahına gedən yolun kənarlarında çalışıblar.

Ordubad rayonunda keçirilən iməciliklərdə Naxçıvan-Ordubad magistral yolunun Aza kəndi hissəsində və "Qapıcıq" adlanan ərazidə yaşıllıqlara aqrotexniki qulluq göstərilib, Ordubad şəhərinin parklarında 1000 ədəd gül kolu əkilib.

Culfa rayonunun sakinləri tərəfindən isə həmin magistral yolun kənarlarındakı ağaclara aqrotexniki qulluq göstərilib, Gömrük İdarəsinə gedən yolun sağ və sol hissələrində 300 ədəd meyvə ağacı əkilib.

Kəngərli rayonunun sakinləri Naxçıvan-Sədərək magistral yolunun Yeni Kərki və Böyükdüz kəndləri ərazilərindəki yaşıllıqlara aqrotexniki qulluq göstəriblər.

Şahbuzlular Naxçıvan-Batabat magistral yolunun Sələsüz kəndi hissəsində 95 ədəd həmişəyaşıl ağac əkib, müəssisə və təşkilatların ərazilərindəki yaşıllıqlara aqrotexniki qulluq göstəriblər.

Sədərəklilər Naxçıvan-Sədərək magistral yolunun Heydərabad qəsəbəsinə giriş hissədə 4 hektarlıq meyvə bağında, Qaraağac kəndinin yol kənarlarında və Heydərabad qəsəbə tam orta məktəbinin həyətində çalışıblar.

Həmin gün muxtar respublikanın müxtəlif yaşayış məntəqələrində yaşayan ahıl vətəndaşların həyətlərində təmizlik işləri aparılıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Dövlət Universitetində fərdi rəsm sərgisinin açılışı olub

***Naxçıvan Dövlət Universitetində növbəti fərdi rəsm sərgisinin açılışı olub. Universitetin Təsviri incəsənət müəllimliyi ixtisasının IV kurs tələbəsi Turanə Hüseynovanın müxtəlif janrlarda yaratdığı 30 əsər sərgidə nümayiş etdirilir.***

Fərdi yaradıcılıq sərgisində çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov təhsil ocağında muxtar respublika rəhbərinin böyük qayğısı sayəsində güclü maddi-texniki bazanın yaradıldığını diqqətə çatdırıb. Bu, ali təhsil ocağında yüksək intellektli, müasir dövrün tələblərinə cavab verən kadrların hazırlanmasına geniş imkanlar açır.

Rektor universitetdə dəfələrlə fərdi rəsm sərgilərinin təşkil olunduğunu bildirib, təhsil ocağında artıq peşəkar rəssamlıq məktəbinin formalaşdığını qeyd edib. O, fərdi üslubu ilə seçilən növbəti rəsm sərgisinin müəllifi Turanə Hüseynovaya bu yolda nailiyyətlər arzulayıb.

Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Mübariz Əsgərov və digərləri çıxış edərək qeyd ediblər ki, muxtar respublikada mədəniyyətə, incəsənətə göstərilən diqqət və qayğı nəticəsində rəssamlar da fəaliyyətlərini genişləndirir, yaradılmış şəraitdən düzgün istifadə etməklə Naxçıvanda mədəniyyətin inkişafına öz töhfələrini verirlər. Çıxışlarda ilk fərdi sərgisi keçirilən gənc rəssama yeni-yeni yaradıcılıq uğurları arzulanıb.

Sonda müəllif Turanə Hüseynova yaradıcı gənclərə göstərilən qayğıya görə minnətdarlığını bildirib.

Sərgi universitetin konservatoriya binasının sərgi salonunda iyunun 13-dək sənətsevərlərin ixtiyarında olacaq.

**Mina QASIMOVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 2015-ci ilin may ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Kəngərli rayonu | 332950 | 33295 | 33447 | 100,5 |
| 2. | Şahbuz rayonu | 418390 | 41839 | 42020 | 100,4 |
| 3. | Şərur rayonu | 833064 | 83306 | 83636 | 100,4 |
| 4. | Sədərək rayonu | 116705 | 11671 | 11713 | 100,4 |
| 5. | Ordubad rayonu | 505933 | 50593 | 50743 | 100,3 |
| 6. | Naxçıvan şəhəri | 1645004 | 164500 | 164950 | 100,3 |
| 7. | Culfa rayonu | 407520 | 40752 | 40832 | 100,2 |
| 8. | Babək rayonu | 1110908 | 111091 | 111281 | 100,2 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 4642367 | 464093 | 473453 | 102,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **10012841** | **1001140** | **1012075** | **101,1** |

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2015-ci ilin may ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1126 | 67,6 | 68,0 | 100,6 |
| 2. | Şahbuz rayonu | 365 | 21,9 | 22,0 | 100,5 |
| 3. | Kəngərli rayonu | 449 | 26,9 | 27,0 | 100,4 |
| 4. | Culfa rayonu | 1039 | 62,3 | 62,5 | 100,3 |
| 5. | Naxçıvan şəhəri | 2175 | 130,5 | 130,5 | 100,0 |
| 6. | Şərur rayonu | 1925 | 115,5 | 115,5 | 100,0 |
| 7. | Babək rayonu | 1526 | 91,6 | 91,6 | 100,0 |
| 8. | Sədərək rayonu | 335 | 20,1 | 20,1 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 26678 | 1600,7 | 1600,7 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **35618** | **2137,1** | **2137,9** | **100,0** |

**Qeyd:** May ayında texniki itki nəzərə alınmaqla daxil olan 35 milyon 618 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 137 min 100 manat olmuş, cəmi 2 milyon 137 min 900 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## Dünya çempionu ilə görüş



Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirməsi İlkin Səfərov ötən həftə İtaliyada keçirilən uşu-sando üzrə dünya çempionatında çıxış edib. Həmyerlimiz bu yarışda bütün rəqiblərinə qalib gələrək dünya çempionu adına layiq görülüb.

Naxçıvan şəhərindəki Üzgüçülük Mərkəzində dünya çempionu ilə görüş keçirilib. Görüşü giriş sözü ilə açan Şərq Döyüşü Sənəti Federasiyasının sədr müavini Cavanşir Salayev muxtar respublikada idmanın inkişafına göstərilən diqqət və qayğıdan danışıb.

Azərbaycan MMA (Qarışıq Döyüş Növləri) Liqasının prezidenti Kənan Məmmədov, məşqçi Xamis Məmmədov çıxışlarında qeyd ediblər ki, muxtar respublika idmanı son illər özünün inkişaf mərhələsindədir və İlkin Səfərovun dünya çempionu olması məhz bunun nəticəsidir.

Tədbirdə çıxış edən dünya çempionu İlkin Səfərov belə bir görüşün təşkili üçün təşkilatçılara minnətdarlığını bildirib: "Bu uğuru qazanmağımda xidməti olan hər kəsə minnətdarlıq edirəm. Qarşıma məqsəd qoymuşdum və buna nail oldum. Məşqlərdə mənə köməklik göstərən məşqçilərimin də əməyi yüksəkdir. İnanıram ki, bu uğur muxtar respublikada bu idman növünə olan marağı bir qədər də artıracaq. Daim bizə qayğı göstərən muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm".

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində *icra məmuru vəzifələrinə işə qəbulla əlaqədar müsabiqənin vaxtı uzadılmışdır*

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq icra məmuru vəzifələrinə müsabiqə elan etmişdir. Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə çatdırılır ki, sənədlərin qəbulu 2015-ci il avqust ayının 10-dək uzadılmışdır. İcra məmuru vəzifələrinə işə qəbulla bağlı müsabiqədə iştirak etmək istəyən namizədlər 2 ədəd arxası ağ fonda 3x4 sm ölçüdə rəngli fotoşəkil təqdim etməklə müraciət formasını doldurmaq üçün Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə müraciət edə bilərlər.

***Əlavə məlumatlar almaq üçün***
***545-00-69; 545-22-30 nömrəli telefonlar vasitəsilə müraciət etmək olar***

***İtmişdir***

Şahbuz Rayon Kooperativlər Cəmiyyətinin (VÖEN-0800022811) qeydiyyat sənədləri itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 445